# ÖZÜNÜMƏŞĞULLUĞA DƏSTƏK ÜZRƏ İSTİFADƏÇİ BƏLƏDÇİSİ



***DÜNYA BANKI TƏRƏFİNDƏN MALİYYƏLƏŞDİRİLƏN***

**MƏŞĞULLUĞA DƏSTƏK LAYİHƏSİ**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

THE WORLD BANK

Dövlət Məşğulluq Agentliyi

# LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

Bu qısa bələdçi Sizə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa Dəstək Layihəsi" ***(MDL)*** çərçivəsində özünüməşğulluq proqramında ***(ÖMP)*** hüquq və vəzifələriniz barədə məlumat verəcəkdir.

Layihənin məqsədi istehsal və xidmət sahəsində avadanlıqların təmin edilməsi vasitəsilə özünüməşğulluq imkanlarını təşviq etmək, Sizə məşğulluq və gəlir əldə etməyə kömək etməkdir.

## "ÖZ BACARIĞINI QAZANCA ÇEVİR"



# MÜNDƏRİCAT

1. ÖMP....................................................................................04

2. Biznes təliminin məzmunu..........................................................05

3. Biznes planınızın hazırlanması və təqdimatı....................................07

4. Avadanlığın alınmasında dəstək və zəmanət.....................................08

5. Öhdəlikləriniz..........................................................................09

6. Sağlamlıq, təhlükəsizlik və avadanlıqlardan istifadə üzrə texniki təlim...........................................................................................10

7. Biznesin ilk ilində müşahidə səfərləri..............................................11

8. DMA tərəfindən təmin edilən avadanlıqların mülkiyyət hüququnun əldə edilməsi.......................................................................................12

9. Biznesinizin ikinci ilində potensial dəstək: mentorluq..........................13

10. Uyğunluq və biznes mükafatı......................................................14

11. Benefisiar tərəfindən Ətraf Mühit və Sosial İdarəetmə Planının həyata keçirilməsi....................................................................................15

12. Şikayətlərə Baxılması Mexanizmi................................................17

Əlavə 1: Tez-tez verilən suallar.......................................................18

# Abreviaturaların Siyahısı

| | |
|---|---|
| **ABA** | Azərbaycan Banklar Assosiasiyası |
| **ASK** | Azərbaycan Sahibkarlar Konfederasiyası |
| **DMA** | Dövlət Məşğulluq Agentliyi |
| **ƏMSİP** | Ətraf Mühit və Sosial İdarəetmə Planı |
| **KOBIA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **LİQ** | Layihə İcra Qrupu |
| **MDL** | Məşğulluğa Dəstək Layihəsi |
| **ÖBBT** | Öz Biznesini Başlat və Təkmilləşdir |
| **ÖMP** | Özünüməşğulluq Proqramı |
| **ÜDSY** | Ünvanlı Dövlət Sosial Yardımı |

# 1. ÖMP

## *Özünüməşğulluq nədir?*

Özünüməşğulluq, ***"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununun 1.1.15*** maddəsində qeyd olunduğu kimi, şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsidir.

Həssas kateqoriyalara aid işsiz və mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran şəxslərin, o cümlədən qadınların, gənclərin, ÜDSY alanların və keçmiş məcburi köçkünlərin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq proqramı həyata keçirilir.

Bu proqram çərçivəsində həssas kateqoriyalara aid şəxslərə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə ***(nağd vəsait olmamaq şərti ilə)*** dəstək göstərilir. Şəxs təqdim etdiyi biznes plana uyğun olaraq istehsal və ya xidmət üzrə əmlaklar ilə təmin edilir.



# 2. Biznes təliminin məzmunu

Biznes təlimi ÖBBT təlimatından istifadə etməklə həyata keçirilir. Hazırkı ***ÖBBT təlim modulu Beynəlxalq Əmək Təşkilatı tərəfindən öz kiçik biznesi üçün potensial biznes ideyası olan özünüməşğulluğa cəlb edilmiş insanlar üçün hazırlanmış proqramdır.***

Azərbaycan üçün proqramın formatı ***MDL*** çərçivəsində uyğunlaşdırılmış formadır. Bu versiya orijinal ÖBBT-nin genişləndirilmiş versiyası olub maliyyə savadlılığı, vergi öhdəlikləri, fəal sahibkarlıq düşüncəsinin formalaşdırılması, psixoloji motivasiya və yaşıl enerji ilə bağlı yeni modulları özündə birləşdirir.

Bu təlimata biznes planın hazırlanmasına dair qaydalar, biznes plan kitabçası, hüquqi, maliyyə və sahibkarlığın inkişafı bölmələri daxildir.

Təlim zamanı Siz biznesin real və gəlirli olduğunu, davamlı biznes inkişaf etdirə biləcəyinizi, risklərin nə olduğunu və nə etməli olduğunuzu müəyyən edə biləcəksiniz.

Biznes təlimləri aşağıdakı mövzuları əhatə edir:

- Hazırlığınızı qiymətləndirin: biznes qabiliyyətinizi qiymətləndirmək və gücləndirmək yolları.
- Biznes Plan: bu, biznesiniz üçün niyə vacibdir?
- Biznes ideyanızı gücləndirin: ilkin biznes ideyanızı nəzərdən keçirin.



- Marketinq Planı: bazar araşdırmasının aparılması və marketinq planının hazırlanması.
- İşçilər: sizə işçi lazımdırmı?
- Təşkilat və İdarəetmə: hansı hüquqi şəxs forması biznesiniz üçün ən uyğundur?
- Biznesiniz üçün satınalma: xammalı haradan əldə etməlisiniz?
- Məhsul və xidmətlərin dəyərinin hesablanması: xərclərinizi və qiymətlərinizi necə hesablamaq olar?
- Maliyyə planlaşdırması: biznes üçün xərc/satış/mənfəət planı və pul vəsaitlərinin hərəkətini hazırlayın.
- Tələb olunan başlanğıc kapital: biznesə başlamaq üçün sizə nə qədər pul lazımdır?
- Kapitalın növləri və mənbələri: bu pulu haradan əldə edəcəksiniz?
- Biznesə başlamaq: siz başlamağa hazırsınız?
- Yer
- Müddət (ümumi və gündəlik)
- Təlimçi (keyfiyyət)



# 3. Biznes planınızın hazırlanması və təqdimatı

Təlimi başa vurandan və Biznes Planı hazırlayandan sonra Siz onu Qiymətləndirmə Komissiyasına təqdim edəcəksiniz.

Biznes üçün tələb olunan avadanlıq və onun istifadəsi Biznes Planınızda təsvir olunacaq.

Siz öz biznes planınızı təsdiq edilmiş şablona uyğun hazırlayacaqsınız.

Təlimçiniz təqdimatınızı hazırlamaqda sizə kömək edəcək.

Qiymətləndirmə komissiyasına təqdimat video keçid vasitəsilə olacaq.

Qiymətləndirmə Komissiyası ***DMA, KOBIA, ABA, ASK*** və Məsləhətçi Şirkətin nümayəndələrindən ibarətdir. Qiymətləndirmə Komissiyası biznes planınızın bütün aspektləri, tələb olunan bacarıqlar, marketinq, xidmət, məhsul/xidmət və avadanlıqla tanışlıq üzrə suallar verə bilər.

Təqdimat aşağıdakılarla yekunlaşa bilər:

***(a)*** biznes planın təsdiqi,

***(b)*** əlavə məlumat və/və ya biznes plana düzəlişlər üçün müraciət,

***(c)*** biznes planın qəbul edilməməsi.

Biznes planınız qəbul edilmədiyi təqdirdə, Siz yenidən bu proqrama və ya DMA vasitəsilə digər aktiv əmək bazarı proqramlarına müraciət edə bilərsiniz.

Sizə qiymətləndirmə komissiyasının qərarı barədə beş gün ərzində məlumat veriləcək. Uğurlu benefisiarlar növbəti mərhələyə keçmək hüququ qazanır.



# 4. Avadanlığın alınmasında dəstək və zəmanət

ÖMP çərçivəsində uğurlu benefisiarlar ödənişsiz qaydada avadanlıqlarla təmin ediləcəklər.

Biznes Planın Qiymətləndirilməsi Komissiyası biznes planınızı təsdiqlədikdən sonra avadanlıq Sizə çatdırılacaq. Siz əvvəlcədən DMA əməkdaşından çatdırılmanın tarixi və yeri barədə məlumat alacaqsınız.

Aşağıdakı hallarda Sizə təqdim edilmiş avadanlıqların üzərində olan zəmanət talonlarında qeyd edilmiş nömrə ilə əlaqə saxlamağınızı xahiş edirik:

*(a)* Siz avadanlıqlarınızı almısınız, lakin onlar hələ quraşdırılmayıb;

*(b)* Avadanlığın bəzi hissələrinin çatışmadığını aşkar etmisiniz;

*(c)* Avadanlığın nasaz vəziyyətdə olduğunu müəyyən etmisiniz.



# 5. Öhdəlikləriniz



ÖMP-də qeydiyyatdan keçməklə Siz seçdiyiniz peşə üzrə fərdi sahibkar kimi karyera qurmağa sadiq və həvəsli olduğunuzu bəyan edirsiniz. Əsas öhdəlikləriniz aşağıdakıları əhatə edir:

- ***10 gün ərzində 40 saatlıq*** ÖBBT təlimində vaxtlı-vaxtında iştirak etmək;
- Təlimçinin auditoriyadan kənarda Sizə verdiyi bazar araşdırması və ya rəqiblərin təhlili kimi tapşırıqları yerinə yetirmək;
- Hazırladığınız yazılı biznes planınızı Qiymətləndirmə Komissiyasına təqdim olunmaq üçün biznes-təlimçiyə təhvil vermək və onu müdafiə etmək;
- Alacağınız avadanlıq üçün müvafiq və təhlükəsiz yer təmin etmək;
- Özünüzü və biznes apardığınız məkanı dörd müşahidə səfəri üçün hazırlamaq;
- Təqdim edilmiş avadanlıqları səliqəli və işlək saxlamaq;
- Təqdim olunmuş avadanlıqdan təsdiq edilmiş biznes planınıza uyğun istifadə etmək;
- Layihə çərçivəsində təşkil olunacaq peşə təlimlərində iştirak etmək;
- Vergi orqanlarında qeydiyyata düşmək və müvafiq vergiləri və digər məcburi ödənişləri ödəmək;
- DMA tərəfindən mülkiyyətinizə keçiriləndə qədər avadanlığı satmamaq, atmamaq və ya üçüncü şəxsin istifadəsinə verməmək.

Əks halda məsuliyyətə cəlb olunaraq məhkəməyə veriləcəksiniz.

# 6. Sağlamlıq, təhlükəsizlik və avadanlıqlardan istifadə üzrə texniki təlim

Siz avadanlığı almazdan əvvəl sağlamlıq, əməyin təhlükəsizliyi və avadanlıqdan istifadə üzrə qısamüddətli texniki təlim keçəcəksiniz.



Bu təlim aldığınız avadanlığın növündən asılı olaraq şəxsən və ya video vasitəsilə təqdim edilir.

# 7. Biznesin ilk ilində müşahidə səfərləri

Biznesə başladığınız birinci ildə dörd müşahidə səfəri həyata keçiriləcək. Bu səfərləri həyata keçirən şəxs adətən biznes təlimçisi, ola bilsin ki, Sizin öz biznes təlimçiniz olacaq. O, biznesin qeydiyyatı və vergi ödəmə də daxil olmaqla geniş biznes məsələləri üzrə məsləhətlər verəcək.

Müşahidə səfərlərini həyata keçirən şəxs, həmçinin, avadanlığın tam şəkildə yerində olduğunu, quraşdırıldığını və öhdəliyə uyğun olaraq istifadə edildiyini müəyyən edəcək. Siz həmin şəxsin suallarına aydın cavab verməli və müvafiq anket formalarını imzalamalısınız.

Bundan əlavə, birinci ildə MDL çərçivəsində də əlavə monitorinq səfərləri həyata keçirilə bilər.



# 8. DMA tərəfindən təmin edilən avadanlıqların mülkiyyət hüququnun əldə edilməsi

Bir illik iş fəaliyyətiniz başa çatdıqdan sonra DMA nümayəndəsi avadanlığın yerində olduğuna, işlək vəziyyətdə olduğuna və davamlı istifadə edildiyinə nəzarət etmək üçün sizə baş çəkəcək. Bu şərtlər yerinə yetirilərsə, avadanlığın mülkiyyət hüququ sizə keçəcək.

Buna qədər isə avadanlıq DMA-nın mülkiyyətidir: avadanlığı başqasına icarəyə və ya üçüncü tərəfin istifadəsinə versəniz, onu satsanız qanun qarşısında məsuliyyət daşıyacaqsınız.

Bu müddət ərzində avadanlıq istifadə olunmazsa, DMA onu sizdən geri almaq hüququnu özündə saxlayır. Bundan əlavə, avadanlığın istismar edildiyi ünvanını və ya əlaqə nömrələrinizi dəyişsəniz, bu barədə müşahidə səfəri aparan şəxsə və DMA-ya lazımi qaydada məlumat verməlisiniz.



**“MƏN QADINAM, BACARIRAM!”**

# 9. Biznesinizin ikinci ilində potensial dəstək: mentorluq

Bizneslə məşğul olduğunuz ilk ilin sonunda mentorun köməyindən istifadə edə biləcəksiniz. ***Mentor sahibkarlıq fəaliyyətinə dair bütün məsələlərdə sizə dəstək olmaq üçün texniki və ya biznes biliklərinə malik olan şəxsdir.*** Mentor sizinlə birlikdə razılaşdırılmış iş planına əsasən altı dəfə sizə baş çəkəcək.



# 10. Uyğunluq və biznes mükafatı

Bizneslə məşğul olduğunuz ikinci il ərzində Siz natura formasında təqdim olunan biznes mükafatına müraciət edə bilərsiniz.

Qeydiyyatdan keçmiş vergi ödəyicisisinizsə, vergiləri və digər icbari ödənişləri lazımi qaydada ödəmisinizsə, birinci illik biznes planınızı yerinə yetirmisinizsə və ya artıqlamasıyla icra etmisinizsə, bununla da böyüyən biznesi idarə etmək bacarığınızı nümayiş etdirmisinizsə, lakin genişləndirmək üçün əlavə avadanlığa ehtiyacınız varsa, bu mükafatları qazana bilərsiniz. Siz ərizə formasının biznes plan şablonunu dolduraraq açıq elan vasitəsilə müraciət edə bilərsiniz.



# 11. Benefisiar tərəfindən Ətraf Mühit və Sosial İdarəetmə Planının həyata keçirilməsi

Bəzi özünüməşğulluq fəaliyyətləri (avtomobil yağlama, dəmirçi, dülgər, parket və taxta döşəmələrin cilalanması, PVC qapı və pəncərələrin hazırlanması) üçün Siz LİQ tərəfindən təmin ediləcək ƏMSİP-in həyata keçirilməsinə cavabdeh olacaqsınız. ƏMSİP-in əsas prinsipləri növbəti səhifədə göstərilmişdir:



1. Layihənin icrası zamanı əməyin mühafizəsi qaydalarına əməl olunurmu?

2. İş prosesində fərdi qoruyucu vasitələrdən (mühafizə eynəkləri, tənəffüs maskaları, əlcəklər və s.) istifadə olunurmu?

3. Fəaliyyət zamanı tullantıların düzgün idarə olunmasına əməl edilirmi?

4. 15 yaşına çatmamış şəxslərin əmək fəaliyyətinə cəlb edilməsi halları varmı?

5. Əmək fəaliyyəti zamanı ətrafdakı insanlar narahat  edilirmi?

ƏMSİP-ə əməl edilməsini yoxlamaq üçün LİQ-in müvafiq əməkdaşları tərəfindən aparılacaq monitorinqlər üçün müvafiq şərait yaratmaq lazımdır.






# 12. Şikayətlərə Baxılması Mexanizmi

MDL-in benefisiarı olaraq Siz müxtəlif vəziyyətlər və hallarla qarşılaşa bilərsiniz və hara və necə müraciət etməyi bilməlisiniz. Aşağıda bu cür vəziyyətlərdə necə davranacağınıza dair qısa təlimat verilmişdir.

Layihə ilə bağlı aşağıdakı hallar baş verərsə, yerli DMA filialı ilə əlaqə saxlayın və ya ***142*** telefon nömrəsinə zəng edin, yaxud ***www.sosial.gov.az*** və ya ***www.dma.gov.az*** saytlarına müraciət edin:

- *insanların narahatçılığına səbəb olmaq,*
- *ətraf mühitin çirkləndirilməsi,*
- *əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı narahatlıqlar,*
- *təcavüz,*
- *maliyyə fırıldaqları və s.*



Avadanlıqlarla bağlı şikayətlərlə dair müraciət üçün ***4-cü Bəndə*** baxın.

# Əlavə 1: Tez-tez verilən suallar

## Biznes təlimi

**Təlim boyu keçiriləcək dərslərdə iştirak etməsəm nə baş verər?**

Təlim proqramının *80%*-ni mənimsəmək üçün davamiyyət tələbi var. Tələb olunan qədər təlim saatlarında iştirak etməsəniz, qeydiyyatdan keçdiyiniz təlim qrupunda iştirakınız dayandırılacaq, lakin Sizin qeydiyyatdan keçdiyiniz region üzrə növbəti təlim qrupunda iştirak etmək hüququnuz var.

**Ailəm və mən ÜDSY alırıq, təlimə qatılsam, bu yardımı itirəcəyik?**



ÖMP proqramı özünüməşğulluq yolu ilə daha yüksək gəlir mənbəyi əldə etmək üçün hazırlanmışdır. Avadanlıqları aldıqdan sonra siz ÖMP-yə maneəsiz keçidi təmin etmək üçün avadanlıqların alındığı gündən etibarən ÜDSY-nin təyinatı bitənə qədər onu almağa davam edəcəksiniz. Lakin Sizin sosial yardım almaq üçün müraciət etmək hüququnuz seçilmiş özünəməşğulluq istiqaməti üzrə əmlakın verilməsi barədə müqavilənin qüvvədə olduğu müddət ərzində məhdudlaşdırılır. Bu müddət bitdikdən sonra isə Siz yenidən ÜDSY-yə müraciət edə bilərsiniz.

**ÖBBT təlimində iştirak müqabilində maddi vəsait alacağammı?**

Təlimlərdə iştirak müqabilində ödəniş almayacaqsınız, lakin təlimdə iştirak Sizə öz biznes ideyanızı inkişaf etdirmək imkanı yaradacaq, bu isə gələcəkdə gəlir gətirən işlər üçün əsas olacaqdır.

## Ailəm ÖBBT təliminə yazılmağıma şübhə ilə yanaşır, mən onları bunun yaxşı fikir olduğuna necə inandıra bilərəm?

ÖBBT təlimi öz biznesinizi inkişaf etdirməyə kömək edəcək və bütün ailə üçün gəlir gətirəcək.

## Özünüməşğulluq mənim üçün yenidir; mən necə bilim ki, biznesim uğurlu olacaq?

Biznes təlimçiləri biznesinizi idarə edərkən baş verə biləcək hallara tam hazır olmağınızı təmin etmək üçün Sizə bütün lazımi təlimləri verəcəklər. Bundan əlavə, biznesinizin uğur qazanmasını təmin etmək məqsədilə mentorluq dəstəyi almaq üçün müraciət edə bilərsiniz.

## Biznes planımı nə vaxt təqdim edəcəyəm?

Biznes planınız elektron kabinetə yerləşdirildiyi gündən etibarən ***30 iş günü ərzində*** Siz onu Biznes Planının Qiymətləndirilməsi Komissiyasına təqdim edəcəksiniz. Təqdimat 10-12 dəqiqə çəkəcək.

## Proqram zamanı biznes ideyası ilə bağlı fikrimi dəyişsəm nə olacaq?

Biznes ideyanızı dəyişmək üçün Siz yaşadığınız ərazi üzrə Məşğulluq filialına və ya DOST mərkəzinə yaxınlaşaraq əvvəlki müraciətinizdən ərizə ilə imtina edib, təkrar yeni müraciət etməlisiniz.

## Müraciət etdikdən sonra proqramda iştirakımı necə izləyə bilərəm?

Müraciət etmiş vətəndaş cari statusundan məlumatlı olmaq üçün **www.dma.gov.az** saytında özünüməşğulluq proqramı üzrə reyestrə (**https://dma.gov.az/reyestrler/employments-list**) daxil ola bilər.



# Avadanlıq

**Avadanlığı almağa uyğun olmaq üçün nə etməliyəm?**

Siz ÖBBT təlim proqramını başa çatdırmalı, öz biznes planınızı (təlimçi ilə birlikdə) Biznes Planın Qiymətləndirilməsi Komissiyasına təqdim etməli və müraciət prosesini tamamlamalısınız.

**Avadanlığın növünə dair kim qərar verir?**

Müraciət etdiyiniz peşəyə əsasən Sizə mövcud avadanlıqların siyahısı təqdim olunacaq. Bu siyahı seçdiyiniz peşə istiqaməti üzrə mütəxəssislərin iştirakı ilə tərtib edilmişdir.

**Avadanlıqları almaq üçün hansı prosedurları yerinə yetirməliyəm?**

Biznes planın tərtib edilməsi, onun təqdim edilməsi və Biznes Planın Qiymətləndirilməsi Komissiyası tərəfindən qəbul edilməsi.

**Nağd pul alıb avadanlıqları özüm ala bilərəmmi?**

Xeyr, avadanlıq natura formasında Sizə çatdırılır.

**Dövriyyə kapitalı və/və ya xammal üçün pul ala bilərəmmi?**

Xeyr, layihə çərçivəsində yalnız avadanlıq təqdim edilir, kapital və xammal üçün xərclər sizin vəsaitinizlə ödənməlidir.

**Avadanlıqları sonra sata və ya başqasına verə bilərəm?**

Xeyr, ***avadanlıqları satmaq və ya üçüncü şəxsin istifadəsinə vermək qadağandır.*** Benefisiarların bu qaydaya əməl etmələrini təmin etmək üçün avadanlıqların çatdırılmasından sonra müşahidə səfərləri və monitorinqlər aparılacaq. Əks halda məsuliyyətə cəlb olunaraq məhkəməyə veriləcəksiniz.




142 - "Çağrı mərkəzi"

Ərazi Məşğulluq filialları
və DOST mərkəzləri

www.sosial.gov.az
www.dma.gov.az

MƏŞĞULLUĞA DƏSTƏK LAYİHƏSİ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

THE WORLD BANK

Dövlət Məşğulluq Agentliyi